Journal *of* PHILOLOGICAL STUDIES Sentyabrr 2026, Cild: 1, Sayı: 3, s. 23−28
Journal *of* PHILOLOGICAL STUDIES September 2026, Volume: 1, Issue: 3, pp. 23−28
DOI: https://doi.org/10.36719/3137-0586/3/23-28

XIV əsr türk ədəbi dilinin inkişafında Qütbün “Xosrov və Şirin” əsərinin rolu

Aydan Musayeva

Xülasə. *XIII–XIV əsrlər türk ədəbi dilinin inkişafında mühüm və mürəkkəb mərhələlərdən biri kimi səciyyələnir. Bu dövrdə türk xalqlarının siyasi, mədəni və ədəbi həyatında baş verən dəyişikliklər nəticəsində müxtəlif ədəbi dillər formalaşmış, zəngin yazılı ədəbi nümunələr meydana gəlmişdir. Qaraxanlı (xaqaniyyə) və Çağatay türkcələri arasında keçid mövqeyi tutan Xarəzm və Qızıl Orda türkcələri XIII–XIV əsrlərdə türk yazı dili tarixində xüsusi mövqeyə malik olmuşdur. Xarəzm və Qızıl Orda mühitində yaranan əsərlər həmin dövrün dil xüsusiyyətlərini, ədəbi dilin inkişaf proseslərini öyrənmək baxımından mühüm mənbələr hesab olunur. Məqalədə Qütbün XIV əsrdə qələmə aldığı “Xosrov və Şirin” məsnəvisinin türk ədəbi dilinin inkişafındakı rolu araşdırılır. Tədqiqat göstərir ki, bu əsər yalnız tərcümə nümunəsi deyil, həm də türk ədəbi dilinin bədii ifadə imkanlarını nümayiş etdirən müstəqil ədəbi abidədir. Əsərin fonetik, leksik və qrammatik xüsusiyyətləri onun dil tarixində mühüm yer tutduğunu göstərir. Əsərdə müxtəlif türk dili qatlarının və dialekt xüsusiyyətlərinin bir arada müşahidə olunması XIV əsr türk yazı dilləri arasındakı qarşılıqlı əlaqələri əks etdirir. Məqalədə Qütbün “Xosrov və Şirin” əsərinin türk ədəbi dilinin formalaşmasında, klassik Şərq irsinin türk dilində mənimsənilməsində və XIV əsr ədəbi mühitinin öyrənilməsindəki əhəmiyyəti müəyyənləşdirilir.*

Açar sözlər: *Qütb, Xosrov və Şirin, Qızıl Orda ədəbi dili, oğuz–qıpçaq elementləri, dil xüsusiyyətləri*

Bakı Dövlət Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: mrs.aydan.musayeva@gmail.com
Daxil oldu: 5 Fevral 2026; Qəbul edildi: 8 May 2026; Onlayn dərc edildi: 5 Sentyabr 2026
© Müəllif(lər) 2026. Bu açıq girişli məqalə Creative Commons Attribution–NonCommercial 4.0 Beynəlxalq Lisenziyasının (CC BY-NC 4.0) şərtlərinə uyğun olaraq yayımlanmışdır.

The Role of Qutb’s “Khosrow and Shirin” in the Development of the 14th-Century Turkic Literary Language

Aydan Musayeva

Abstract. *The 13th–14th centuries are regarded as one of the most significant and complex stages in the development of the Turkic literary language. During this period, political, cultural, and literary changes within the Turkic world contributed to the formation of various literary languages and the emergence of numerous valuable written literary works. Khwarazm Turkic and Golden Horde Turkic, which occupied a transitional position between Karakhanid (Khaqani) and Chagatai Turkic, played a distinctive role in the history of the Turkic written language during the 13th–14th centuries. The literary works produced in the Khwarazm and Golden Horde cultural environments constitute important sources for studying the linguistic characteristics and developmental stages of the literary language of that era. This article examines the role of Qutb’s 14th-century masnavi, “Khosrow and*

Shirin," in the development of the Turkic literary language. The study demonstrates that this work is not merely a translation but also an independent literary monument reflecting the artistic and expressive potential of the Turkic literary language. Its phonetic, lexical, and grammatical features indicate its significant place in the history of the language. The coexistence of different Turkic linguistic layers and dialectal features in the text reflects the interaction among the Turkic written languages of the 14th century. The article also highlights the importance of Qutb's "Khosrow and Shirin" in the formation of the Turkic literary language, the adaptation of the classical Eastern literary heritage into Turkic, and the study of the literary environment of the 14th century.

Keywords: *Qutb, Khosrow and Shirin, Golden Horde literary language, Oghuz–Kipchak elements, linguistic features*

Baku State University, Master's student, Baku, Azerbaijan
E-mail: mrs.aydan.musayeva@gmail.com
Received: 5 February 2026; Accepted: 8 May 2026; Published online: 5 September 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

Giriş

Türk dillərinin inkişaf tarixində XIV əsr xüsusi yer tutur. Bu dövrdə türk xalqlarının siyasi, ictimai və mədəni həyatında baş verən dəyişikliklər ədəbi dilin formalaşmasına və inkişafına güclü təsir göstərmişdir. Müxtəlif türk dövlətlərinin yaranması, şəhər mədəniyyətinin yüksəlişi, yazılı ədəbi nümunələrin geniş yayılması nəticəsində yeni ədəbi dillər formalaşmışdır. XIV əsrdə meydana çıxan ədəbi nümunələr dilin lüğət tərkibinin zənginləşməsinə, üslubi imkanlarının genişlənməsinə və sonrakı dövrlərin ədəbi dillərinin formalaşmasına mühüm təsir göstərmişdir.

XIII–XIV əsrləri əhatə edən, Qaraxanlı türkcəsindən sonra gələn ədəbi dil Xarəzm türkcəsi adlanır. Bu terminə ilk dəfə Əli Şir Nəvainin "Məcalisun-nəfayis" adlı təzkirə kitabında rast gəlinir: *"Mevlânâ Hüseyn Harezmi: ... Mevlânâ Celâlü'd-din-i Rûmi kuddise sırruhu Mesnevi'sıga şerh bitipdür. Ve Kâside-i Bürde'ga dah Harezmiçe Türki tili bile şerh bitipdür"* (Nəvai, 1490). Xarəzm türkcəsi Qaraxanlı türkcəsi ilə Çağatay türkcəsi arasında yer alır. Bəzi türkoloqlar bu türkcəni müstəqil ədəbi dil dövrü kimi qiymətləndirsələr də, digər türkoloqlar onu Çağatay türkcəsinin başlanğıc mərhələsi hesab edir və ya fərqli terminlərlə səciyyələndirirlər. Xarəzm adlanan tarixi bölgə müasir Özbəkistan və Türkmənistan ərazilərinin bir hissəsini əhatə edir. Bu ərazi Amudərya (Ceyhun) çayının Aral gölünə töküldüyü sahələrdə, çayın hər iki sahili boyunca yerləşmişdir. "Xarəzm" termini ilkin dövrlərdə həm bölgəni, həm də burada yaşayan əhalini ifadə etsə də, ərəb istilasından sonra daha çox ölkə adı kimi işlədilmiş, bölgənin sakinləri isə xarəzmlilər (xarəzmilər) adlandırılmışdır. Orta əsr İslam coğrafiyaşünaslarının məlumatlarına görə, Xarəzm qərbdən oğuzların yaşadığı torpaqlarla, cənubdan Xorasanla, şərqdən Mavəraünnəhrlə, şimaldan isə digər türk torpaqları ilə həmsərhəd olmuşdur. Qərbi Türküstanın mühüm bölgələrindən biri olan Xarəzm Səmərqənd və Buxara kimi şəhərlərlə yanaşı, regionun iqtisadi və mədəni həyatında əhəmiyyətli yer tutmuşdur. Ərazi əsasən geniş çöl və səhra sahələri ilə əhatələnsə də, Amudərya çayı burada yaşayış və təsərrüfat fəaliyyətinin formalaşmasında həlledici rol oynamışdır. Şərqdə Qırğız çölləri və Qızılqum, qərbdə isə Qaraqum səhrası ilə sərhədlənən bölgədə çayın gətirdiyi münbit torpaqlar insanların məskunlaşmasına əlverişli şərait yaratmışdır. Bu səbəbdən Xarəzm tarix boyu müxtəlif xalqların diqqətini cəlb edən mühüm yaşayış məskənlərindən biri olmuşdur.

Dil və ədəbiyyat tarixi sahəsində aparılan araşdırmalarda Xarəzm türkcəsi və bu dildə yazılan əsərlərlə bağlı müxtəlif fikirlər mövcuddur. Türkoloqlar arasında bu məsələ ilə bağlı vahid fikrin formalaşmaması Xarəzm türkcəsinin tarixdəki yerinin uzun müddət elmi mübahisə mövzusu olaraq

qalmasına səbəb olmuşdur. János Eckmanna görə, Xarəzm türkcəsi Qaraxanlı türkcəsi ilə Çağatay türkcəsi arasında yer alır və ədəbi dil tarixi baxımından mühüm əhəmiyyət daşıyır. J. Eckmann qeyd edir ki, Orta Asiya türk ədəbi dilləri tarixində ayrıca bir mərhələnin mövcudluğu ilk dəfə A. N. Samoyloviç tərəfindən irəli sürülmüşdür. A. N. Samoyloviç Qütbün "Xosrov və Şirin" və Xarəzminin "Məhəbbətnamə" əsərlərinin dil xüsusiyyətlərini araşdıraraq Orta Asiya türk ədəbi dilini Qaraxanlıca, oğuzca–qıpçaqca və Çağatayca olmaqla üç mərhələyə ayırmışdır. Eckmann bu bölgünün ümumilikdə dil tarixi həqiqətlərinə uyğun gəldiyini qəbul etsə də, "oğuzca–qıpçaqca" anlayışının müəyyən dərəcədə yenidən nəzərdən keçirilməsinin vacibliyini vurğulayır. Onun fikrincə, Samoyloviç həmin dövrdə bəzi mühüm Xarəzm türkcəsi abidələrinin dilini araşdırmadığından oğuz və qıpçaq elementlərinin rolunu olduğundan artıq qiymətləndirmişdir. J. Eckmann bildirir ki, oğuz və qıpçaq təsiri ilk növbədə bu şivələrə məxsus bəzi sözlərin işlədilməsində özünü göstərir. Həmçinin fonetik və morfoloji səviyyədə də müəyyən xüsusiyyətlər müşahidə olunur: çoxhecalı sözlərdə və xüsusilə *-luğ/-liğ* şəkilçilərində son səsin düşməsi, yönlük hal şəkilçisinin *-qa/-kə, -ğa/-gə* formaları əvəzinə *-a/-ə* şəklinin işlənməsi, təsirlik hal şəkilçisində *-nı* yerinə *-ı* formasının istifadəsi, I şəxs geniş zaman formasında *maz, män* əvəzinə *man* variantının işlədilməsi, gələcək zamanın *-ısar* şəkilçisi ilə ifadə olunması və s. (Eckmann, 1966).

Monqollardan əvvəlki dövrdə Xarəzm Sırdəryanın aşağı axarında yerləşən mühüm mədəni və ədəbi mərkəzlərdən biri olmuş, Kaşğarla birlikdə türk-islam dünyasında xüsusi yer tutmuşdur. Xarəzm Qızıl Orda hakimiyyəti illərində də öz əhəmiyyətini itirməmiş və 1220-ci ildən 1379-cu ilə qədər siyasi cəhətdən Qızıl Ordaya bağlı qalmışdır. Ona görə də burada türk ədəbiyyatının inkişafı dayanmamışdır. XIII əsrin sonlarından etibarən Xarəzmdə güclənən elmi və mədəni fəaliyyət sonrakı əsrdə Saray və Krım kimi Qızıl Ordanın mühüm mərkəzlərinə də yayılmışdır. Xarəzmdən köçən alimlər, şairlər, yazıçılar və digər ziyalılar özləri ilə birlikdə yazı dili ənənələrini də aparmış, bunun nəticəsində Xarəzm türkcəsi Qızıl Orda ərazisində geniş yayılmışdır. Ona görə də Qızıl Orda ədəbi dilinin inkişafında Xarəzmin mühüm rol oynadığı qeyd edilir. Belə bir dil mühitində Qızıl Orda ərazisində işlənən yerli danışıq xüsusiyyətlərinin Xarəzm türkcəsi ilə qarşılıqlı təsiri nəticəsində formalaşan Qızıl Orda və ya Cuci ulusu ədəbi dilinin Xarəzmdə meydana gəlmiş yazı dilindən müəyyən fərqlər göstərməsi təbii görünür. Bu iki dil sahəsi arasındakı fərqləri sistemli şəkildə araşdıran və ortaya qoyan tədqiqatlar indiyədək kifayət qədər aparılmamışdır.

Türk yazıçı və şairlərinin müxtəlif bölgələrə köç etməsi həmin dövrün yazı dilinə də təsir göstərmişdir. Onlar əsərlərini yazarkən həm mənsub olduqları dil ənənəsindən, həm də yaşadıqları ərazidə işlənən dil xüsusiyyətlərindən istifadə etmişlər. Ona görə də bəzi əsərlərdə müxtəlif türk tayfalarına məxsus dil elementləri birlikdə müşahidə olunur. Bu səbəbdən Məmlük, Qızıl Orda və Xarəzm ərazilərində qələmə alınmış bütün əsərləri yalnız Xarəzm türkcəsinə aid etmək düzgün sayılmır. Həmin bölgələrin hər biri özünəməxsus dil xüsusiyyətlərinə malik olmuş və bu xüsusiyyətlər ədəbi dilin formalaşmasında müəyyən rol oynamışdır.

Aysu Atanın təsnifatına görə, əsərlərin yazıldığı coğrafiya və müəlliflərin mənsub olduqları mühit nəzərə alınmaqla "Müqəddimətül-Ədəb", Rabğuzinin "Qisasül-Ənbiya"sı, "Nəhcül-Fəradis", "Muinül-Mürid" və sətiraltı Quran tərcümələri Xarəzm türkcəsinin abidələri sırasına daxil edilir. Qütbün "Xosrov və Şirin" əsəri, "Məhəbbətnamə", "Məracnamə", "Dastani-Cumcuma" və Qızıl Orda sahəsinə aid yarlıq və bitiklər isə Xarəzm–Qızıl Orda ədəbi mühitinə aid nümunələr kimi qiymətləndirilir. Müəllif bu əsərləri müqayisəli şəkildə araşdıraraq onların ortaq və fərqli qrammatik xüsusiyyətlərini ortaya qoymuşdur (Ata, 2002).

Fuat Köprülü XIII–XIV əsrlərdə Türküstan, Xorasan, Xarəzm və Qızıl Orda bölgələrində qələmə alınmış əsərləri ümumilikdə Çağatay ədəbi mühitinin tərkib hissəsi kimi dəyərləndirmişdir. Tədqiqatçı XV əsr Çağatay ədəbiyyatının formalaşmasına zəmin yaradan və ədəbi xüsusiyyətləri baxımından onunla böyük oxşarlıq göstərən XIII–XIV əsr abidələrini "İlk Çağatay dövrü" adı altında

birləşdirmişdir. Həmçinin həmin dövrü "Teymurilər dövründə ədəbi inkişaf", "Qızıl Ordada ədəbi inkişaf" və "Xarəzmdə ədəbi inkişaf" olmaqla üç istiqamətdə nəzərdən keçirmişdir. Köprülünün təsnifatında Qütbün "Xosrov və Şirin" əsəri, "Məhəbbətnamə" və "Cümcümənamə" Qızıl Orda ədəbi mühitinə aid edilmiş, Əlinin "Qisseyi-Yusif"i, Rabğuzinin "Qisasül-Ənbiya"sı, "Muinül-Mürid" və "Nəhcül-Fəradis" isə Xarəzm sahəsindəki ədəbi inkişafın nümunələri kimi təqdim olunmuşdur.
Metodlar. Tədqiqat zamanı müqayisəli-tarixi, təsviri və filoloji təhlil metodlarından istifadə edilmişdir. Araşdırmanın əsas mənbəyini Qütbün XIV əsrdə qələmə aldığı "Xosrov və Şirin" məsnəvisi təşkil edir. Əsərin fonetik, leksik və qrammatik xüsusiyyətləri təhlil edilmiş, əldə olunan dil faktları Xarəzm–Qızıl Orda dövrünə aid digər yazılı abidələr və mövzu ilə bağlı elmi tədqiqatlarla müqayisə olunmuşdur. Tədqiqat prosesində A. Zajaczkovski, N. Hacıeminoğlu, Mahmud Kaşğari və digər türkoloqların araşdırmalarından istifadə edilmişdir.

Nəticələr

Aparılan təhlil göstərir ki, Qütbün Qızıl Orda dövründə qələmə aldığı "Xosrov və Şirin" məsnəvisi XIV əsr türk ədəbiyyatının mühüm bədii nümunələrindən biridir. Əsər Nizami Gəncəvinin eyniadlı farsdilli məsnəvisindən sərbəst tərcümə kimi dəyərləndirilsə də, yalnız tərcümə xüsusiyyəti ilə məhdudlaşmır. Qütb Nizaminin süjet xəttini və əsas ideyasını qorumaqla yanaşı, əsəri XIV əsr türk ədəbi dil mühitinə uyğun şəkildə yenidən qurmuşdur. Tərcümə zamanı fars dilindəki bədii ifadələri olduğu kimi köçürməmiş, onları türk dilinin ifadə imkanları daxilində təqdim etmişdir. Müəllif bəzi hissələrə əlavələr etmiş, müəyyən parçaları ixtisar etmiş və ayrı-ayrı məqamları dəyişdirmişdir. Bu xüsusiyyətlər Qütbün əsərə yaradıcı yanaşdığını və həm tərcüməçi, həm də sənətkar mövqeyində çıxış etdiyini göstərir.

Əsərin dilində həm oğuz, həm də qıpçaq xüsusiyyətlərinin müşahidə olunması dövrün mürəkkəb dil mənzərəsini əks etdirir. Bu baxımdan "Xosrov və Şirin" yalnız Nizaminin əsərinin türk dilinə tərcüməsi deyil, həm də XIV əsr türk ədəbi dilinin imkanlarını və klassik Şərq irsinin türk mədəni mühitində mənimsənilməsini nümayiş etdirən müstəqil bədii əsərdir. Əsər, eyni zamanda, Nizami Gəncəvi irsinin türk dünyasında yayılmasına mühüm şərait yaratmışdır. Xarəzm–Qızıl Orda sahəsində meydana gələn ilk dünyəvi məzmunlu əsərlərdən biri kimi qiymətləndirilən "Xosrov və Şirin" sırf ədəbi məqsədlə yazılmışdır. Aysu Atanın qeyd etdiyi kimi, bu məsnəvi türk ədəbiyyatında yazılmış iyirmi bir "Xosrov və Şirin" və ya "Fərhad və Şirin" məsnəvisi arasında ilk nümunə sayılır (Ata, 2002).

Əsərin giriş hissəsində Tini-Bek xan və Məlikə Xatun üçün yazılmış mədhiyyələr onun Tini-Bek xan və həyat yoldaşı Məlikə Xatunun adına tərcümə edildiyini təsdiqləyir. Tini-Bekin atası Özbək xanın vəfatından sonra 1341-ci ildə taxta çıxdığı, 1342-ci ildə isə qardaşı Canı-Bek tərəfindən öldürüldüyü məlumdur. Buna əsasən, Qütbün əsəri təxminən 1341–1342-ci illərdə qələmə aldığı qəbul edilir. Məsnəvinin yeganə nüsxəsi Bibliothèque Nationale-də 312 nömrə altında saxlanılır. Qütbün "Xosrov və Şirin" əsəri ilə bağlı ilk elmi araşdırmalar A. Zajączkowski tərəfindən aparılmışdır. O, 1958-ci ildə əsərin transkripsiya olunmuş mətnini və faksimil nüsxəsini çap etdirmiş, 1961-ci ildə isə həmin mətnə əsaslanan lüğəti nəşr etdirmişdir. N. Hacıeminoğlu 1968-ci ildə "Kutb'un Hüsrev ü Şirin'i ve Dil Hususiyetleri" adlı tədqiqatını nəşr etdirmiş və əsərin transkripsiyasını vermişdir. Fonetik təhlilin nəticələri göstərir ki, əsərdə *e/i* qarşılaşmasında əsasən *i*, *b/m* qarşılaşmasında isə *m* variantı üstünlük təşkil edir. Həmçinin *ğ/v* və *g/v* dəyişmələrində *v* səsinin üstün mövqedə olduğu müşahidə edilir. Söz əvvəlində rast gəlinən variantlı formalar arasında da daha çox *v*-lı şəkillərin işlənməsi diqqəti cəlb edir.

Əsərin lüğət tərkibində qıpçaq dil sahəsinə məxsus xüsusiyyətlər müşahidə olunur. "Və", "da/də" mənalarında işlənən *ma, me* bağlama ədatları, *ok/ök* qüvvətləndirici ədatları, eləcə də *alıs* "uzaq", *iyer-* "ardınca getmək, tabe olmaq", *bolmaçı* "faydasız, bihudə" kimi sözlər buna nümunədir. Mətndə

əvvəlki nəşrlərdə və qrammatikalarda qeydə alınmayan *-sangan, -sengen* şəkilçiləri ilə düzələn şərt formasına da rast gəlinir. Bu forma gücləndirilmiş şərt mənasını ifadə edir. Əvvəllər fars mənşəli hesab edilən *çəmən* sözünün əsərdə *çimgen* şəklində işlənməsi onun türk mənşəli ola biləcəyini düşündürür. Müasir dildəki *çəmən* formasının *çimgen* sözündəki *g* səsinin düşməsi nəticəsində yaranması ehtimalı mövcuddur. Bu hadisə türk dillərinə məxsus fonetik inkişaf xüsusiyyətlərindən biri kimi qiymətləndirilə bilər. Mahmud Kaşğari qeyd edir ki, oğuz və qıpçaqlar adların və feillərin əvvəlindəki *y* səsini *əliflə* əvəz edir, yəni düşürür, yaxud *c*-yə çevirirlər (Kaşğari, 1072). "Xosrov və Şirin"də söz əvvəlində həm *y* səsinin işləndiyi, həm də düşdüyü nümunələr mövcuddur. *Iğla-/yığla-* "ağlamaq" formaları buna nümunədir. Bununla belə, əsərdə *ığla-* forması daha çox işlənmişdir. Söz daxilində və söz sonunda müşahidə olunan dişarası *ž* (ژ) > *y* səs dəyişimi oğuz türkcəsinə məxsus xüsusiyyətlərdən biridir. Əsərdə eyni kökdən yaranan sözlərin həm *ž*-lı, həm də *y*-li formalarına rast gəlinir. Məsələn, *eyer* sözünün törəmələri olan *ežerle-, ežerlen-, ežerlet-* formaları dişarası *ž* ilə, *eyer* sözü isə *y* ilə yazılmışdır (Dilek Herkmen, p. 18).

Mahmud Kaşğari göstərir ki, çigil və başqa türk tayfalarının dillərində söz ortasında dişarası *ž* səsi işlənir: *kažıng* "qayın ağacı", *kažın* "qayın". Bu səs arğuların dilində də müşahidə olunur: *kažık* "ağacdan düzəlmiş qab", *kužuzlan* "dul qadınla evlənmək". Yağma, tuxsı, qıpçaq, yabaku, tatar, kay, cumul və oğuzların dillərində isə söz ortasındakı dişarası *ž* səsi *y* səsinə çevrilir. Söz əvvəlində *b* və *m* səslərinin işlənməsi baxımından əsərdə hər iki varianta rast gəlinir. Lakin bəzi sözlərin yalnız *m*-li formaları müşahidə olunur. Məsələn, *mengü* "əbədi", *mengiz* "bəniz", *mengzet-* "bənzətmək", *ming* "min", *mung* "sıxıntı" sözlərinin *b*-li variantları olan *bengü, bengiz, bengzet-, bing, bung* formaları əsərdə qeydə alınmamışdır. Əsərdə *m* hərfi ilə işlənən formalar əsasən feil şəkilçilərində, əvəzlik mənşəli şəxs şəkilçilərində və yalnız bir neçə nümunədə müşahidə edilir. Xarəzm türkcəsində gələcək zamanı ifadə etmək üçün əsasən *-gay, -kay, -gu (turur)* şəkilçilərindən istifadə edilirdi. Xarəzm dövrünə aid digər əsərlərdən fərqli olaraq, "Xosrov və Şirin"də *-ısar* gələcək zaman şəkilçisi işlənmişdir. Bu şəkilçiyə əsərdə iki nümunədə rast gəlinir: *kalmayısar* "qalmayacaq" və *yığlayısar* "ağlayacaq". Anadolu sahəsində geniş yayılmış bu şəkilçinin "Xosrov və Şirin"də işlənməsi əsərin dilindəki oğuz türkcəsi xüsusiyyətlərindən biri kimi qiymətləndirilir.

Müzakirə

Tədqiqatın nəticələri "Xosrov və Şirin" əsərinin dilində Xarəzm–Qızıl Orda ədəbi mühitinə məxsus xüsusiyyətlərlə yanaşı, oğuz və qıpçaq elementlərinin də birlikdə işləndiyini göstərir. Əsərdə *e/i, b/m, ğ/v, g/v* variantlılığı, *y* səsinin söz əvvəlində həm işlənməsi, həm də düşməsi, dişarası *ž* səsinin *y* səsinə çevrilməsi və *-ısar* gələcək zaman şəkilçisinin mövcudluğu bu qarışıq dil mənzərəsini təsdiqləyir. Bu nəticələr N. Hacıeminoğlunun əsərin lüğət tərkibinin onu qıpçaq dil sahəsinə yaxınlaşdırması haqqında qənaəti ilə əsasən uyğunluq təşkil edir. Bununla yanaşı, *-ısar* şəkilçisinin, *y* səsinin düşdüyü formaların və digər fonetik xüsusiyyətlərin işlənməsi əsərdə oğuz türkcəsinin təsirinin də mühüm olduğunu göstərir. Buna görə əsərin dilini yalnız bir türk dil sahəsinə aid etmək düzgün olmaz. Onun dili Xarəzm–Qızıl Orda ədəbi mühitində müxtəlif türk dili elementlərinin qarşılıqlı təsiri nəticəsində formalaşmışdır.

Əsərin Nizami Gəncəvinin eyniadlı məsnəvisindən sərbəst tərcümə edilməsi də onun dil xüsusiyyətlərinə təsir göstərmişdir. Qütb mənbə mətnin süjet və ideya əsasını qorusa da, bədii ifadələri türk dilinin imkanlarına uyğunlaşdırmış, müəyyən əlavələr, ixtisarlar və dəyişikliklər etmişdir. Buna görə "Xosrov və Şirin"i yalnız tərcümə əsəri kimi deyil, müəllifin yaradıcı mövqeyini və XIV əsr türk ədəbi dilinin bədii imkanlarını əks etdirən müstəqil ədəbi abidə kimi qiymətləndirmək mümkündür. Əsərdə müxtəlif dil qatlarının birləşməsi onun keçid dövrünün dil xüsusiyyətlərini əks etdirdiyini göstərir. Bu baxımdan məsnəvi Xarəzm türkcəsi ilə sonrakı Çağatay ədəbi dili arasındakı əlaqələrin, eləcə də oğuz və qıpçaq elementlərinin qarşılıqlı təsirinin öyrənilməsi üçün mühüm mənbədir.

Nəticə

Aparılan araşdırma Qütbün "Xosrov və Şirin" əsərinin XIV əsr türk ədəbi dilinin inkişafında mühüm yer tutduğunu göstərir. Əsərin dili Xarəzm–Qızıl Orda ədəbi mühitinin xüsusiyyətlərini özündə birləşdirməklə yanaşı, oğuz və qıpçaq dil elementlərinin qarşılıqlı təsirini də nümayiş etdirir. Bu xüsusiyyət əsəri həmin dövrdə mövcud olan mürəkkəb dil proseslərinin öyrənilməsi üçün qiymətli mənbəyə çevirir. Qütb farsdilli klassik nümunəni türk ədəbi mühitinə gətirərək türk dilinin bədii ifadə imkanlarını genişləndirmişdir. O, Nizaminin süjet xəttini və əsas ideyasını qorumaqla yanaşı, əsəri türk dilinin xüsusiyyətlərinə uyğunlaşdırmış və ona yaradıcı şəkildə yanaşmışdır. Buna görə "Xosrov və Şirin" yalnız tərcümə nümunəsi deyil, müstəqil bədii və dil abidəsi kimi dəyərləndirilməlidir.

Məqalənin elmi yeniliyi Qütbün "Xosrov və Şirin" əsərinin yalnız türk dilinə tərcümə kimi deyil, XIV əsr türk ədəbi dilinin inkişafını əks etdirən müstəqil dil və ədəbiyyat abidəsi kimi araşdırılması ilə müəyyən olunur. Tədqiqatda əsərin dilində müşahidə edilən oğuz və qıpçaq xüsusiyyətləri sistemləşdirilmiş və onun Xarəzm–Qızıl Orda ədəbi mühitindəki mövqeyi dəqiqləşdirilmişdir.

Ədəbiyyat

Ata, A. (2016). *Çağatay Türkçesinin ilk devresi: Harezm-Altın Ordu Türkçesi*. Ankara Üniversitesi Basımevi.

Cəfəroğlu, A. (1996). *Türk dili tarihi*. Enderun Kitabevi.

Eckmann, J. (1996). *Harezm, Kıpçak ve Çağatay Türkçesi üzerine araştırmalar* (O. F. Sertkaya, Ed.). Yükseköğretim Kurulu Matbaası.

Ercilasun, A. B. (2013). *Başlangıçtan yirminci yüzyıla Türk dili tarihi* (13. bs.). Akçağ Yayınları.

Əzizov, E. (2019). Mahmud Kaşğarinin "Divan"ında türk dillərinin təsnifi məsələsi. *Tədqiqlər, 3*, 3–8.

Hacıeminoğlu, N. (1997). *Harezm Türkçesi ve grameri*. Türk Tarih Kurumu Basımevi.

Hacıeminoğlu, N. (2000). *Kutb'un Husrev ü Şirin'i ve dil hususiyetleri*. Türk Dil Kurumu Yayınları.

Herkmen, D. (2021). Kutb'un Hüsrev ü Şîrîn'inde Oğuzca özellikler. *Türk Dünyası Dil ve Edebiyat Dergisi, 52*, 11–32. https://doi.org/10.24155/tdk.2021.175

Köprülü, M. F. (1945). Çağatay edebiyatı. In *İslâm Ansiklopedisi* (Vol. 3, pp. 270–323). Millî Eğitim Basımevi.

Kuyma, E. (2015). Harezm dönemi Türkçesi ve eserlerine genel bir bakış. *Hitit Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 8*(1), 367–383.

Levend, A. S. (1968). *Ali Şir Nevaî: Divanlar ile Hamse dışındaki eserler* (Vol. 4). Türk Tarih Kurumu Basımevi.

Tekin, T. (2003). *Tarih boyunca Türkçenin yazı dilleri*. Simurg Yayınları.